**UOT 336**

# ŞƏRQİ ZƏNGƏZURDA TURİZMİN İNKİŞAFINA XARİCİ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİ İMKANLARI

**Gülnaz NƏSİBOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 28 mart 2023; çapa qəbul edilmişdir: 25 aprel 2023; online-da çap edilmişdir: 31 may 2023.

Received: 28th of March, 2023; accepted: 25th of April, 2023; published online: 31st of May, 2023.

**Açar sözlər**: *Şərqi Zəngəzur, investisiya, turizm, iqtisadi artım*

## Giriş

Turizm sektoru əksər hökumətlər tərəfindən iqtisadi artımın və inkişafın potensial perspektivli mənbəyi, eləcə də insanların inkişafının təşviqi kimi qəbul edilir. Xüsusi ilə də, Azərbaycan kimi iqtisadiyyatı təkşaxəli olan ölkələr üçün, turizm sektoru ölkənin ixrac gəlirlərini artıra biləcəyi, həm birbaşa, həm də dolayı yolla çoxlu sayda iş yerləri və gənclər üçün məşğulluq yarada biləcəyi əsas sahələrdən biri ola bilər.

Bundan əlavə, ölkədə turizm sektorunun inkişafı iqtisadiyyatın diversifikasiyasına təkan verir və daha çox xidmət yönümlü iqtisadiyyatı təşviq edir və bu baxımdan turizm sektoruna birbaşa xarici investisiyalar inkişaf etməkdə olan ölkələrin geniş spektrində yerli turizm sektorlarının yayılmasında və genişləndirilməsində əsas rol oynayır.

Turizm sektorunda xarici investisiyanın dinamikasının iqtisadiyyata təsirlərinin təhlilinə ehtiyac var. Bu baxımdan, turizmdə transmilli korporasiyaların investisiya qoyduğu ölkəyə verəcəyi faydaların çox olacağı etiraf edilə bilər, ancaq bəzən bunun problemlərini də görmək mümkündür. Məsələn, xarici kapitalın artması valyuta məzənnələrinin bahalaşmasına səbəb ola bilər. Bu, istehsal resurslarının yenidən bölüşdürülməsinə səbəb olacaq və beynəlxalq rəqabətə məruz qalan sektoru daha az rəqabətli edəcək. Buna Hollandiya xəstəliyi nəzəriyyəsi deyilir və Korden (1984), Corden və Neary (1982) tərəfindən aparılan tədqiqatlar böyük xarici valyuta axınının gətirə biləcəyi mənfi iqtisadi təsirləri göstərməkdədir.

Məqalədə, Azərbaycan turizminin potensialı və problemləri, Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin inkişaf sahələri və bu sahələrə xarici investisiyanın cəlb edilməsi yolları tədqiq ediləcək.

## Azərbaycan turizminin potensialı və problemləri

Azərbaycan yerləşdiyi coğrafi mövqeyi, təbiəti, tarixi və mədəni abidələri ilə yüksək turizm potensialına sahib olan, lakin bu potensialdan düzgün və tam formada istifadə edə bilməyən bir ölkədir.

Bunun səbəbləri başqa tədqiqatların mövzusudur, ancaq qısaca nəzər salsaq bu problemlərin kökü, liberal iqtisadi cəmiyyətin tam formalaşa bilməməsindədir. Liberal iqtisadiyyatda dövlət investisiyanı ancaq hərb və energetika sənayesi kimi strateji sahələrə edər. Digər sahələr üçün isə istər daxili istərsə xarici investisiyanın cəlb edilməsinə şərait yaradar.

* *magistrant, BAAU*
*e-mail*: nesibovagulnaz511@gmail.com

Azərbaycan turizminin bir digər problemi də investor problemidir. Turizmə olan investisiyalar da əsas iki oyunçu vardır:

- birbaşa dövlət və ya dövlət dəstəkli böyük investorlar;
- orta və kiçik sahibkarlar.

Dövlətin son zamanlar turizm sahəsində investisiyaları, demək olar ki, yox dərəcəsindədir. Ancaq neft bumu zamanından etibarən, Azərbaycan turizmində dövlət dəstəkli daxili investorlar meydana çıxmışdır. Bu investorlar Quba, Şəki, Qəbələ, Qax və Oğuz kimi rayonlarda dəbdəbəli otellər tikir, turizm kompleksləri yaradırlar.

Ancaq bütün bu investisiyalar, əksər vaxtlarda perspektivsiz və gəlir gətirməyən investisiyalara çevrilir. Məsələn, Qəbələ rayonunda 4-ü beş ulduzlu olmaqla, ümumilikdə 17 otel, 100-dən artıq turizm obyekti vardır. Ötən il bu turizm obyektlərindən cəmi, 41 min 192 nəfər yerli və əcnəbi turist istifadə edib ki, onun da 51 faizi, yəni 24 min 326 nəfəri yerli turistdir. Yerli turistlərin istirahət müddəti isə, 2-7 gün arasında dəyişməkdədir. Yekun olaraq deyə bilərik ki, Qəbələ turizm cəhətdən iqtisadi olaraq səmərəsizdir. Ancaq burada problem Qəbələnin və digər regionların iqtisadi potensialı yox, bu potensialdan düzgün və səmərəli istifadə edilməməsidir. Göstərdiyimiz misal timsalında Azərbaycan turizm sektoru əksərən bu formada fəaliyyət göstərməkdədir və əsasən, investorların digər gəlirləri ilə bu sahədə olan zərərləri kompensasiya edilməkdədir.

Azərbaycan turizm sektorunun əmək qabiliyyətli əhalinin məşğulluğunda rolu da çox aşağıdır. Turizmə yaxud ona yaxın sektorlara 23 min nəfər cəlb edilib, bu da əmək-qabiliyyətli əhalinin heç 1%-i deyil. Gürcüstanda bu göstərici 27-28% bərabərdir, Türkiyədə isə mövsümdə turizm sektoruna 7-8 mln. nəfər cəlb edilir. (1, 124)

Ümumilikdə götürsək, Azərbaycan turizm sektorunun əsas problemləri bunlardır:

- investorların doğru investisiya edə bilməməsi, düzgün iqtisadi planlarının olmaması;
- bu sahədə təlim görmüş professional işçi qüvvəsinin azlığı;
- regionun turizm potensialının düzgün qiymətləndirilə bilməməsi.

Bütün bu problemlər yüksək potensiala sahib olan bu sahənin inkişafına maneələr yaratmaqdadır. Azərbaycan hökumətinin infrastruktur layihələri və hər regionun əlçatanlığı turizmin inkişafı üçün münbit sahə yaratmaqdadır. Təəssüf ki, düzgün strategiyaların olmaması səbəbi ilə, nə turizm potensialından nə də ki, yaradılmış infrastrukturdan maksimum səviyyədə istifadə edilə bilmir.

**Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin inkişaf sahələri və bu sahələrə xarici investisiyanın cəlb edilməsi yolları**

Şərqi Zəngəzur iqtisadi rayonu, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yaradılmış yeni bir iqtisadi rayondur. Rayon uzun illər işğal altında qalmış, təbiətinə, tarixinə, mədəni və irsi abidələrinə böyük miqyasda zərər dəymişdir (3, 64).

Vurğulamaq lazımdır ki, rayonun uzun illər işğal altında qalmasına və böyük miqyasda dağıntıya məruz qalmasına baxmayaraq, Laçın və Kəlbəcər təbiətinin böyük hissəsi toxunulmaz qalmışdır (5, 44). İqtisadi rayonun digər ərazilərində, Zəngilan və Qubadlıda meşələrin böyük miqyasda, Cəbrayılda isə tamamilə məhv edilməsinə baxmayaraq, subyektiv səbəblərdən Kəlbəcər və Laçın meşələri böyük miqyasda, ermənilər ərazini tərk edənə qədər toxunulmaz qalmışdır (1, 29). Bunun xristian ənənəsində, insanların yüksək ərazilərdə məskunlaşması və ermənilərin özününküləşdirdiyi alban məbədlərinin yüksək dağlarda və meşələrin dərinliyində yerləşməsi kimi səbəbləri vardır. Həmçinin rayonun uzun illər işğal altında qalması böyük dağıntılara səbəb olsa da, regionun yenidən inşası, müstəqilliyin ilk 30 ilində edilən səhvlərin bu regionda edilməməsinə şərait yaratmaqdadır (10, 57).

Şərqi Zəngəzur İqtisadi rayonu Cəbrayıl istisna olmaqla, əksərən dağlıq və dağətəyi ərazilərdən ibarətdir (6, 14). Ərazi geniş meşə və mineral su resurslarına sahibdir. Sadəcə

Tərtər çayının qolu olan Tutquncay dərəsində 400-ə qədər müalicəvi sulara rast gəlinir ki, bu da kiçik bir ərazi üçün unikal sayıla bilər. Təbii ki, bütün bu faktorlar ərazini bir çox turizm sahəsi üçün əvəzolunmaz edir (2, 84).

Regionda turizmin inkişafı üçün dövlət tərəfindən bir çox quruculuq işləri aparılır. Laçın və Zəngilan aeroportları, Murovdağ tuneli, Əhmədbəyli-Şuşa-Laçın magistralı, Bakı-Zəngilan-Naxçıvan dəmiryol xətti kimi infrastruktur layihələri, regionun əlçatanlığını artırmaqdadır. Həmçinin böyük qayıdış planı əsasında, mərhələli formada, məcburi köçkünlərin də əraziyə geri qayıdışı təmin ediləcəkdir.

Bütün bunların fonunda ərazinin turizm olaraq inkişaf etməsi üçün sadəcə, investorların tapılması və düzgün iqtisadi planlar əsasında investisiyaların həyata keçirilməsi lazımdır.

Qloballaşan dünyada investor cəlb etmək olduqca aktual məsələdir. Bunun üçün sadəcə düzgün reklam strategiyası seçmək və bu sahədə davamlı marketinq işlər aparmaq lazımdır. Dövrün tələbləri ilə ayaqlaşmaq daha məqsədəuyğundur. Burda sosial medianın gücündən də istifadə etmək lazımdır (8, 147). Düzgün marketinq və reklam siyasəti ilə xarici investorlarda əraziyə maraq yaratmaq mümkündür. Ancaq xarici investorlar dörd əsas şərt təmin edildikdə regiona maraq göstərəcəkdir (9, 162):

- ədalətli məhkəmə sistemi;
- təhlükəsizlik zəmanəti;
- dövlət sığorta zəmanəti;
- iqtisadi perspektivlilik.

Bu şərtlər təmin edildikdən sonra, bölgəyə daha rahat investisiya cəlb etmək mümkündür.

Azərbaycan üçün ən tez cəlb edilə biləcək xarici investisiya faktoru Körfəz ölkələridir. Son iyirmi ildə Körfəz ölkələri dünyanın əksər bölgələrində, cəsarətli formada investisiyalar edir, milyon dollarlıq proyektlər həyata keçirdirlər. Azərbaycan bir çox faktordan istifadə edərək bu Körfəz maliyyəsinin bir qismini ölkəyə cəlb edə bilər. Təbii ki, düzgün marketinq siyasəti və məhkəmə sistemi ilə bu mümkündür (4, 23).

Regionun turizm potensialını təhlil etdikdə, Azərbaycanın digər regionlarında bu sahədə olan müəyyən çatışmazlıqları nəzərə alaraq edilən səhvlərin edilməməsi lazımdır. Ərazidə çoxsaylı yüksək keyfiyyət tələblərinə cavab verən otellər tikmək qısa bir müddətdə gəlir gətirə bilər, ancaq bu davamlı olmayacaqdır. Regionun təbiətini, relyefini və tarixini nəzərə aldıqda regionda turizm əsasən aşağıdakı sahələr üzrə inkişaf etdirilməlidir (7, 77):

- Mağara turizmi: Qubadlı, Zəngilan, Laçın və Kəlbəcər dağları qədimdən qaçaqların sığındığı mağaralarla zəngindir. Kəlbəcərdəki Zar mağaraları bunlar içərisində ən məşhurudur.
- Termal fəaliyyətlər: bölgənin zəngin termal mənbələrinin olması ekoturizm çərçivəsində istifadə ediləcək əsas resurslardandır. Bu da günümüzdə təbiətdə vaxt keçirmək ilə bərabər, öz sağlamlığını düşünən turistlərin bu destinasiyaya cəlb edilməsində mühüm rol oynayacaq.
- Dağ turizmi: bölgənin relyefinin, əsasən, dağlıq olması bu turizm növünün inkişaf etdirilməsi üçün əsas verir. Dağ turizmi ekoturizm çərçivəsində uğurlu bir şəkildə tətbiq ediləcək və destinasiyanı daha çəkici edəcək vacib turizm növləri içində ən üst sıradadır. Həmçinin dağ-xizək mərkəzi, dağ paraşütçülüyü kimi sahələrdə inkişaf etdirilə biləcək potensiallı sahələrdəndir.
- Aqroturizm: Bu turizm növünün inkişafı gələcəkdə bölgədə yaşayacaq əhalinin sosial rifahını artıracaq, bölgə əhalisinin mədəniyyətinin yaşadılmasına və tanıdılmasına səbəb olacaq.
- Trekking: Dağlıq hissələrdə və daha çox qrup şəklində həyata keçiriləcək trekking

fəaliyyətləri ekoturizm çərçivəsində daha çox turistin bölgəyə çəkilməsinə səbəb olacaq.

• Botanika turizmi: Şərqi Zəngəzur bölgəsinin endemik və nadir bitkilərlə zəngin olması bu turizm növünün inkişafına və təbiətdə daha çox vaxt keçirmək istəyən turistlərin bölgəyə cəlb edilməsinə şərait yaradır.

Regionun həmçinin film sektoru üçün böyük potensialı vardır. Məskunlaşma sıxlığının azlığı, təbiəti və coğrafi quruluşu hesabına, bir çox janrda olan filmlər üçün region, açıq pavilyon rolunu çox rahatlıqla icra edə bilər.

**Nəticə**

Azərbaycan da turizm sektoru bütün iqtisadi fəaliyyətlər arasında əhəmiyyəti və çəkisi artan bir sektora çevrilmişdir. Bu əmək tutumlu sektor üçün xarici kapital həyati əhəmiyyət kəsb edir.

Xarici investisiya qoyuluşlarının Azərbaycanın iqtisadi quruluşuna uyğun olması və inkişaf hədəflərinə uyğun olması şərti ilə turizm sektoru təşviq ediləcək sektorlardan biri olmalıdır. Turizm gəlirləri birbaşa və dolayısı ilə turizmlə bağlı olan sektorlarda əlavə tələb artımı yaratmaqla yanaşı, onun xarici ödənişlər balansında təmin etdiyi təkmilləşdirmələr və tələb artırıcı xüsusiyyəti yaradır.

Azərbaycan turizminin çoxlu əlverişli imkanlarına baxmayaraq, onun kifayət qədər xarici kapital cəlb etdiyini söyləmək olmaz. Bunun əsas səbəbi Azərbaycanda turizm investisiya sahələrində investisiya mühitinin tam olaraq yaxşılaşdırılmamasıdır. Bu səbəbdən əcnəbilər ölkəmizə kapital qoymur və başqa ölkələrə üstünlük verirlər.

Xarici investorlar Azərbaycanın turizm potensialından xəbərdardırlar, lakin bürokratik maneələr, vergi dərəcələri, təşviqatın olmaması, müharibə təhlükəsi xarici investisiyaların ölkəyə girişinə mənfi təsir göstərir.

Ölkəmizdə xarici kapital mühitini yaxşılaşdırmaq və turizm sektorunu xarici kapital üçün cəlbedici etmək mütləq formada əhəmiyyətlidir.

## ƏDƏBİYYAT

1. Əliyev T. Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın mütərəqqi menecment formaları əsasında inkişaf istiqamətləri, iqtisadi artım və ictimai rifah. Bakı: Çaşıoğlu, 2021.
2. Fikrətzadə F.F., Hacıyeva S.İ. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması. Bakı: Maarif, 2020.
3. Səmədzadə Z. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Bakı: Vətən, 1995.
4. Qasımlı V. İqtisadi modernləşmə. Bakı: Elm, 2017.
5. Cahandarov B., Ermənilərin ekoloji terror siyasəti. Bakı: Sabah, 2020.
6. Qubadlı Ç., Qubadlının təbiəti erməni işğalından əvvəl və sonra, Bakı: Mütərcim, 2007.
7. Məsimli Ə., Qarabağın işğalının iqtisadi nəticələri. Bakı: Çinar, 2020.
8. Euijltne K. Transportation Systems: Innovations and Case Studies. London: Bloomsbury, 1998.
9. Mehtiyev A. İnvestisayaların stimullaşdırılması siyasəti: onu necə gücləndirmək olar?” Bakı: Elm, 2017.

**Resume**

**Gulnaz Nesibova**

**Possibilities of Attracting Foreign İnvestments to the Development of Tourism in Eastern Zangazur**

One of the most important problems of Azerbaijan's economy is the lack of resources. The problem of meeting the demand for resources also reveals the importance of foreign capital. This lack of resources can be overcome to some extent by transfers from abroad to the country. In other words, foreign capital is an important resource that can be used to expand the savings gap of a business.

For this reason, there is a great need for foreign capital in the implementation of investments, especially in tourism investments. In this study, there are suggestions about the importance of foreign investment in terms of Azerbaijan Tourism, its development and improvement of the investment environment.

Efforts by governments in developing countries to stimulate foreign tourism investment can improve their balance of payments. But this in itself does not lead to economic growth or better income distribution. Effective growth in tourism depends mostly on foreign direct investments dominated by large Transnational Corporations. Countries can benefit from participation in vertically integrated tourism networks of multinational companies, but these companies bear risks by benefiting from tourism growth indicators.

Currently, many developing countries consider the development of tourism as one of the strategic lines for achieving economic growth. Due to its characteristics, the tourism sector is considered as an area that creates seasonal and local demand for micro and small enterprises. The ability of micro and small enterprises to take advantage of these conditions is often limited by their access to credit and other sources of financing.

The development of the tourism sector in Azerbaijan is one of the main priorities of the state's economic policy. In addition to large-scale measures such as the reconstruction of the transport infrastructure at the level of international standards, the construction of air and sea ports in various regions, the construction of new highways, and the improvement of railways, state investments in the direction of restoration and promotion of historical monuments that can arouse interest for tourists are bearing fruit.

In recent years, international art events and sports competitions organized in Azerbaijan have also played an important role in increasing the attractiveness of our country in terms of tourism and in the development of the local tourism market.

**Keywords:** *Eastern Zangezur, investment, tourism, economic growth*

**Резюме**

**Гюлназ Насибова**

**Возможности привлечения иностранных инвестиций в развитие туризма Восточного Зангазура**

Одной из важнейших проблем экономики Азербайджана является нехватка ресурсов. Проблема удовлетворения спроса на ресурсы также раскрывает значение иностранного капитала. Эта нехватка ресурсов может быть частично преодолена за счет переводов из-за рубежа в страну. Другими словами, иностранный капитал является важным ресурсом, который может быть использован для увеличения сберегательной бреши бизнеса.

По этой причине существует большая потребность в иностранном капитале для осуществления инвестиций, особенно инвестиций в туризм. В этом исследовании есть предложения о важности иностранных инвестиций с точки зрения туризма Азербайджана, его развития и улучшения инвестиционной среды.

Усилия правительств развивающихся стран по стимулированию иностранных инвестиций в туризм могут улучшить их платежный баланс. Но это само по себе не ведет к экономическому росту или лучшему распределению доходов. Эффективный рост туризма зависит главным образом от прямых иностранных инвестиций, в которых доминируют крупные транснациональные корпорации. Страны могут извлечь выгоду из участия в вертикально интегрированных туристических сетях многонациональных компаний, но эти компании несут риски, извлекая выгоду из показателей роста туризма.

В настоящее время многие развивающиеся страны рассматривают развитие туризма как одно из стратегических направлений достижения экономического роста. В силу своих особенностей сектор туризма рассматривается как сфера, создающая сезонный и локальный спрос для микро и

малых предприятий. Способность микро и малых предприятий воспользоваться этими условиями часто ограничивается их доступом к кредитам и другим источникам финансирования.

Развитие туристического сектора в Азербайджане является одним из основных приоритетов экономической политики государства. Помимо масштабных мероприятий, таких как реконструкция транспортной инфраструктуры на уровне международных стандартов, строительство воздушных и морских портов в различных регионах, строительство новых автомобильных дорог, усовершенствование железных дорог, государственные инвестиции в направлении реставрации и популяризации исторических памятников, способных вызвать интерес у туристов, приносят свои плоды.

В последние годы организованные в Азербайджане международные художественные мероприятия и спортивные соревнования также сыграли важную роль в повышении привлекательности нашей страны с точки зрения туризма и в развитии местного туристического рынка.

***Ключевые слова:*** *Восточный Зангезур, инвестиции, туризм, экономический рост*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.